# AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 40

Bakı şəhəri — "12" may 2014-cü il

**"Neonatoloji xidmətin təkmilləşdiriməsi barədə"**

Minilliyin İnkişaf Məqsədlərindən irəli gələn, xüsusilə körpə ölümünün azaldılması üzrə ölkə qarşısında duran vəzifələri nəzərə alaraq, yenidoğulmuşlara göstərilən tibbi yardımın keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı bu xidmətə operativ nəzarətin aparılması və müvafiq tədbirlərin vaxtında həyata keçirilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "Neonatoloji xidmətin təkmilləşdirilməsi üzrə Komissiya" yaradılsın və onun tərkibi təsdiq edilsin (əlavə olunur).
2. "Neonatoloji xidmətin təkmilləşdirilməsi üzrə Komissiya" haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
3. Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova tapşırılsın:

3.1.Respublikanın tibb müəssisələrində göstərilən neonatoloji xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə həmin tibb müəssisələrində komissiya tərəfindən monitorinqlərin aparılması təşkil edilsin;

3.2.monitorinqlərin nəticəsi əsasında tibb müəssisələrində göstərilən neonatoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması üçün zəruri tədbirlər həyata keçirilsin.

4. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
12 « may » 2014-ci il
tarixli 40 nömrəli
əmri ilə təsdiq edilmişdir

**Neonatoloji xidmətin təkmilləşdirilməsi üzrə Komissiyası haqqında**

# ƏSASNAMƏ

## I. Ümumi müddəalar

1. Bu Əsasnamə, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında" Əsasnaməyə uyğun olaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra – "nazirlik") "Neonatoloji xidmətin təkmilləşdirilməsi üzrə Komissiya"nın (bundan sonra – "komissiya") fəaliyyət istiqamətlərini, hüquq və vəzifələrini və fəaliyyətinin təşkili qaydalarını müəyyən edir.
2. Komissiya respublika üzrə əhaliyə göstərilən neonatoloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə görülən tədbirləri əlaqələndirir və öz fəaliyyətini ictimai əsaslarla həyata keçirir.
3. Komissiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, nazirliyin Əsasnaməsini, əmr qərar və sərəncamlarını, digər normativ-hüquqi aktları, Nazirliyin əmr, qərar və sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.
4. Komissiya öz fəaliyyətini nazirliyin struktur bölmələri, tabeliyindəki müəssisələri ilə və digər qurumlarla qarşılıqlı əlaqədə qurur.

## II. Komissiyanın fəaliyyət istiqamətləri

5.Komissiyanın fəaliyyət istiqamətləri aşağıdakılardır:
5.1.yenidoğulmuşların sağlamlığının mühafizəsi ilə bağlı göstərilən tibbi xidmətin keyfiyyətinə nəzarəti həyata keçirmək;
5.2.yenidoğulmuşlar arasında xəstələnmə və ölüm hallarını təhlil edərək vəziyyətin yaxşılaşdırılması üçün təklifləri vermək;
5.3.bu sahədə aparılan müalicə-profilaktika tədbirləri zamanı aşkar olunan çatışmazlıqları araşdıraraq müvafiq tədbirləri həyata keçirmək.

## III. Komissiyanın vəzifələri

6. Komissiyanın bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri vardır:
6.1. tibb müəssisələrində göstərilən neonatal xidmətin keyfiyyətini və effektivliyini qiymətləndirmək;
6.2. xidmət ərazisi üzrə bölgüyə daxil olan birinci və ikinci səviyyə doğuşayardım müəssisələrində yenidoğulmuşların erkən aşkarlanma, profilaktika və müalicə tədbirləri üzrə monitorinq keçirmək;
6.3. monitorinq prosesi zamanı xəstəliklərin diaqnostika, müalicə və profilaktikası prosesinin aşkar olunan çatışmazlıqları aradan qaldırılması üçün tibb müəssisələrinə metodik yardım göstərmək;
6.4. yenidoğulmuşlara yüksək ixtisaslı konsultativ və müalicə yardımının beynəlxalq standartlar səviyyəsinə çatdırılması üçün təkliflər hazırlamaq;
6.5. müxtəlif nozologiyalar üzrə xəstə yenidoğulmuşlara reanimasiya və reabilitasiya yardımının göstərilməsi ilə bağlı müalicə taktikasının alqoritmlərini hazırlamaq;
6.6. həkim və orta tibb işçilərinin müvafiq sahə üzrə bilik və bacarıq səviyyələrinin artırılması üçün müasir diaqnostika və müalicə üsullarının öyrədilməsini təmin etmək məqsədi ilə təlimlər təşkil etmək;
6.7. neonatologiya sahəsində klinik protokolların hazırlanmasında iştirak etmək;
6.8 yenidoğulmuşların sağlamlığının mühafizəsi üzrə görülən tədbirlərin həyata keçirilməsinə nəzarət etmək;
6.9. regionlarda neonatal xidmətin yaxşılaşdırılması məqsədi ilə yenidoğulmuşlar üçün səyyar reanimasiya briqadalarının təşkilində iştirak etmək;
6.10. respublikada diridoğulmanın beynəlxalq meyarlarının tətbiq edilməsi məqsədilə müvafiq təkliflər vermək;
6.11. yenidoğulmuşlar arasında xəstələnmə və ölüm hallarını təhlil edərək nəticələri barədə hesabatı hər rübün sonunda nazirliyə təqdim etmək və bu sahədə regionlarda rüblük zonal müşavirələr təşkil etmək;
6.12. neonatologiyanın aktual məsələlərinə aid seminarlar və konfranslar təşkil etmək;
6.13. neonatologiya sahəsində qabaqcıl təcrübənin və tibb elminin nailiyyətlərinin respublikada tətbiqi ilə bağlı təklifləri hazırlamaq.

## IV. Komissiyanın hüquqları

7. Komissiya öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:
7.1. yenidoğulmuşlara göstərilən tibbi xidmətin təkmilləşdirilməsinə dair təkliflər vermək;
7.2. təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq səhiyyə təşkilatlarından, hüquqi və fiziki şəxslərdən müəyyən olunmuş qaydada zəruri olan məlumatları və materialları sorğu ilə tələb etmək;

7.3. yenidoğulmuşlara tibbi xidmətin təşkili ilə bağlı normativ hüquqi aktların hazırlanmasında iştirak etmək;
7.4. gündəmdə olan məsələləri araşdırmaq üçün həmin sahələr üzrə mütəxəssislərdən ibarət işçi qrupları qurmaq;
7.5. ayda bir dəfə komissiyanın iclasını təşkil edərək işçi qruplarını və tələb olunan tibb işçilərini və ya mütəxəssisləri dəvət etmək;
7.6. yenidoğulmuşlara tibbi yardımın göstərilməsində kobud səhvlərə yol verən tibb işçiləri barədə məsuliyyət tədbirləri görülməsi üçün təkliflər vermək;
7.7. qanunvericiliyə uyğun olaraq digər hüquqları həyata keçirmək.

## V. Komissiyanın fəaliyyətinin təşkili

8. Komissiya sədr, katib və tək sayda üzvlərdən ibarət tərkibdə fəaliyyət göstərir.
8.1. Komissiyanın sədri komissiyanın fəaliyyətinə rəhbərlik edir və komissiyaya həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.
8.2. Komissiyanın sədri və üzvləri Azərbaycan Respublikasının səhiyyə naziri tərəfindən təyin edilir.
8.3. Komissiyanın sədri komissiyanın işini kollegiallıq prinsipləri əsasında qurur.
8.4. Komissiyanın iclasları komissiyanın sədri tərəfindən təsdiq edilmiş iş planına uyğun olaraq ayda bir dəfədən az olmamaqla keçirilir. Zəruru hallarda növbədənkənar iclaslar da keçirilə bilər.
8.5. Komissiyanın sədri:
8.5.1. komissiyanın işini təşkil edir;
8.5.2. komissiyanın qərarlarını təsdiq edir;
8.5.3. komissiyanın üzvlərinin tərkibinə, habelə onların dəyişdirilməsinə dair təkliflər verir;
8.5.4. komissiyanın üzvləri arasında vəzifə bölgüsü aparır və onların işinə nəzarəti həyata keçirir;
8.5.5.səlahiyyətləri daxilində göstərişlər verir, onların icrası, habelə icraya nəzarətin həyata keçirilməsi üzrə tapşırıqlar verir;
8.5.6. zəruri hallarda komissiyanın qərarlarını nazirliyin kollegiyasının müzakirəsinə təqdim edir.
8.5.7. komissiyanın fəaliyyəti barədə mütəmadi olaraq nazirliyə hesabat verir;
8.5.8. komissiyanı təmsil edir.
8.6. Komissiyanın iclasları, komissiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.
8.7. Komissiyanın qərarları iclasda iştirak edən komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir, sədr və komissiyanın iclasında iştirak edən üzvlər tərəfindən imzalanır və protokollarla rəsmiləşdirilir. Komissiyanın qərarı qəbul edilərkən səslər bərabər olarsa, komissiya sədrinin səsi həlledici hesab edilir.

8.8. Komissiyanın iclaslarının keçirilməsi ilə bağlı təşkilati məsələlərin həll edilməsi və kargüzarlıq işlərinin aparılması komissiyanın katibi tərəfindən həyata keçirilir.
8.9. Komissiyanın katibi aşağıdakı funksiyaları yerinə yetirir:
8.9.1. komissiyanın iclasından 2 gün əvvəl onun gündəliyi və tarixi haqqında məlumatları, şuranın müzakirəsinə çıxarılacaq məsələlər üzrə sənədlərin layihələrini (kağız və ya elektron formada) şura üzvlərinə çatdırır;
8.9.2. komissiya iclaslarında müzakirə olunan məsələlərə dair komissiya üzvlərindən daxil olan təklifləri toplayır, bu haqda komissiya sədrinə arayış təqdim edir;
8.9.3. komissiyanın iclaslarını, çıxışları, rəy və təklifləri protokollaşdırır və iclasın yekun sənədlərinin layihələrini komissiya sədrinə təqdim edir;
8.9.4. komissiyanın iclaslarında qəbul olunmuş qərarlar haqqında komissiya üzvlərini məlumatlandırır;
8.9.5. sədrinin göstərişi ilə digər funksiyaları həyata keçirir.

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
12 « may » 2014-cü il
tarixli 40 nömrəli
əmri ilə təsdiq edilmişdir.

**Neonatoloji xidmətin təkmilləşdirilməsi üzrə komissiyanın**

## TƏRKİBİ

1. Rüstəm Hüseynov - ET Mamalıq və Ginekologiya İnstitutunun yeni doğulmuşların reanimasya və intensiv terapiya şöbəsinin müdiri (komissiyanın sədri)

2. Gündüz Ağayev - K.Fərəcova adına Elm-Tədqiqat Pediatriya İnstitutunun erkən yaşlı uşaqların cərrahiyə şöbəsinin müdiri

3. Nərgiz Şərifova - K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun yenidoğulmuşların reanimasiya və intensiv terapiya şöbəsinin anestezioloq reanimatoloqu

4. Solmaz Eyvazova - K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun reanimasiya və intensiv terapiya şöbəsinin müdiri

5. Gülnarə Məmmədzadə - ET Mamalıq və Ginekologiya İnstitutunun neonatologiya bölməsinin elmi rəhbəri

6. Aynur Bağırova - ET Mamalıq və Ginekologiya İnstitutunun yenidoğulmuşların reanimasiya və intensiv terapiya şöbəsinin neonatoloq reanimatoloqu

7. Xatirə Nağıyeva - ET Mamalıq və Ginekologiya İnstitutunun təşkilati şöbəsinin kiçik elmi işçisi

| | |
|---|---|
| 8. Məryam Rzayeva | -Respublika Perinatal Mərkəzin Yenidoğulmuşların reanimasiya və intensiv terapiya şöbəsinin müdiri |
| 9. Fəxrəddin Qarayev | -Ə.Əliyev adına Həkimlərin Təkmilləşdirmə İnstitutunun pediatriya kafedrasının neonatologiya kursunun rəhbəri |
| 10.Səadət Ələsgərova | -ATU-nun neonatologiya kafedrasının dosenti |